# HƏRB TARİXİMİZİN ŞANLI SƏHİFƏSİ

***Tarix boyu baş verən müharibələr Yer üzünün ən böyük faciələri olub. Xüsusilə XX əsrdə baş verən II Dünya Müharibəsi bəşəriyyətə misli görünməmiş bəlalar gətirib. 1939-cu il sentyabrın 1-də Hitler Almaniyasının Polşaya hücumu ilə II Dünya Müharibəsi başlandı. Dünyaya sahib olmaq kimi xülyalarla yaşayan Hitler bir-birinin ardınca Avropa ölkələrini işğal altına aldı. Avstriya, Belçika, Çexoslovakiya, Norveç faşistlərin əlinə keçdi.***

Növbəti qurban isə Sovet dövləti olmalı idi. O dövrdə SSRİ -də iqtisadi vəziyyətin ağır olması, ölkədə müxtəlif millətlərin yaşaması Hitleri arxayın edirdi ki, üç ay ərzində o, rus imperiyasını diz çökdürə bilər. Lakin cəmi bir il keçməmiş Hitlerin yanıldığı məlum oldu.

1941-ci il iyunun 22-də alman faşistləri heç bir xəbərdarlıq etmədən SSRİ ərazisinə hücum etdilər. Bu Böyük Vətən Müharibəsinin başlanması demək idi. Müharibənin elan edilmədən başlaması müqaviməti çətinləşdirsə də, tezliklə sovet xalqları bir yumruq kimi birləşdilər. 1941-ci ilin sonunda Moskva yaxılığında faşistlərin ağır məğlubiyyəti Adolf Hitlerin "Barbarossa" ("İldırımsürətli müharibə") planını alt-üst etdi. 1942-ci ildən etibarən isə sovet qoşunlarının müdafiə taktikası əks hücumla dəyişdi. Bir il sonra - 1943-cü ilin fevralında Stalinqradda sovet qoşunlarının parlaq qələbəsi müharibənin taleyini həll etdi. Ağır məğlubiyyətə uğrayan alman qoşunları geri çəkilməyə başladı. 1945-ci il mayın 2-də Sovet ordusu Berlinə daxil oldu və mayın 9-da Almaniya danışıqsız təslim olmaq haqqında akt imzaladı. Bununla da Böyük Vətən Müharibəsi sona çatdı.

Azərbaycan Böyük Vətən Müharibəsində qazanılan qələbədə mühüm rol oynayıb. Həmvətənlərimizdən təşkil olunmuş 77, 223, 270, 402 və 416 -cı diviziyalar müharibənin gedişində böyük rəşadət göstərib. Böyük Vətən Müharibəsi zamanı Azərbaycandan Rusiyanın emal zavodlarına 75 milyon ton neft, 15 kq qızıl, 952 kq gümüş göndərilib. 400 min azərbaycanlı faşizmlə mübarizədə həlak olub. 123 nəfər həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 30 nəfər isə göstərdiyi qəhrəmanlıqlara görə "Şöhrət ordeni"nin hər üç dərəcəsi ilə təltif ediliblər. Həzi Aslanov, Ziya Bünyadov, İsrafil Məmmədov, Qafur Məmmədov, Mehdi Hüseynzadə. . . II Dünya Müharibəsi tarixinə Azərbaycanın adını yazan igid oğullardır. Qəhrəmanlıq tariximizi yaradan və bizə belə bir rəşadət məktəbi qoyub gedən igidlər həmişəyaşar, öyünməli dünənimizdir.

İndi biz tarixi yada salanda 9 May qələbəsində öz payımızı, öz haqqımızı axtarırıq. İkinci Dünya Müharibəsinin əsas cinahı olan sovet-alman cəbhəsində və işğal olunmuş əraziləri bürümüş partizan müharibələrində Azərbaycan oğullarının axıtdığı qan, göstərdiyi hünər bizim üçün əziz və unudulmazdır.

Bugünkü erməni faşizmi də alman faşizmi ilə eyni qan qrupundandır. Faşist Almaniyasını "Qırmızı İmperiya"nın üstünə yönəldənlər özləri də bəlaya düşdülər. Faşizmin şüşədən çıxarılmış cin kimi gec də olsa başı üzüldü. Şübhəsiz, erməni faşizminin də aqibəti belə olacaq. Erməni separatizminə can verənlər bu gün özləri separatçı müharibənin girovuna çevrilib. Qafqazda qalanmış tonqalın alovu artıq çoxdan burada marağı olanların öz sifətini yandırır.

9 May insanların öz yarandıqları torpaqda yaşamaq haqqının pozulmazlığını tarixə iri hərflərlə həkk edib. Bəşəriyyət hər il bu həqiqəti anladığını və ona sahibliyini nümayiş etdirir. Hələlik isə 9 May bizdə ata-babalarımızın hünərinə hörmət, öz qələbəmizə inam duyğuları oyadır. Biz öz qələbə günümüzün intizarındayıq. Müstəqilliyimizlə başlanan və onun məzmununu tamamlayan ərazi bütövlüyümüzün bərpası bizim qələbə və qaliblik hissiyyatımızı özümüzə qaytaracaq. 60 il sonra 9 May bizə faşizmin öz qanında boğulduğu və həmişə də boğulacağı gün kimi görünür.

"1941-1945 illər müharibəsində Qələbənin 60 illik yubileyinə hazırlıq və yubileyin qeyd edilməsi üzrə Milli Proqramın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 06 iyun 2004-cü il tarixli sərəncamına əsasən respublikamızın hər yerində, eləcə də uşaq kitabxanalarında, mədəni- maarif ocaqlarında müxtəlif kütləvi tədbirlər keçirilməlidir. MKS-nin uşaq şöbələri kənd kitabxanalarının işçiləri ilə seminarlar təşkil edə bilər. Seminarda alman faşizmi üzərində qələbənin 60 illiyi ilə əlaqədar tədbirlər planı

müzakirə olunmaqla yanaşı, Şəmistan Nəzirlinin tərtib etdiyi "Əfsanəvi Mixaylo" kitabının icmalını keçirmək həmkarlar üçün daha da maraqlı olar. İcmal keçirərkən bu da onların diqqətinə çatdırılmalıdır ki, Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseynzadə müharibədən qabaq Bakıda, indiki Əzizbəyov adına kütləvi kitabxanada kitabxanaçı işləmişdir.

Uşaq və yeniyetmələrdə müharibə ilə bağlı təsəvvür yaratmaq məqsədilə kitabxanada ilk növbədə sərgi təşkil olunmalıdır. Sərgidə kitab, qəzet və jurnal məqalələri ilə yanaşı Böyük Vətən Müharibəsi qəhrəmanlarının şəkilləri və müharibə dövrünə həsr olunmuş foto şəkillər də nümayiş oluna bilər. Sərginin yanında ədəbiyyat siyahısı və kartoteka qutusu qoymaq olar. Sərgi aşağıdakı başlıqlar altında təşkil oluna bilər:

"Alovlu illərin qəhrəmanları"", "Qəhrəman şəhər"", "Tariximizin şanlı səhifələri"" , "Heç kim və heç nə unudulmur"" və s. Sərgidə görkəmli şəxsiyyətlərin müharibə haqqında söylədikləri fikirlərdən, sitatlardan istifadə etmək sərgini daha da məzmunlu və dolğun edər. Nümunələr veririk:

"Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, II Dünya Müharibəsində, Böyük Vətən Müharibəsində Azərbaycan Respublikasının fəaliyyəti, rolu çox böyük olmuşdur".

*H. Əliyev*

"İnsanları ən qorxunc iki talançıdan-müharibədən və totalitar rejimdən xilas etmək lazımdır".

*U. Çörgill*

"Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur yer üzünü".

*H. Cavid*

Müasir dövrümüzdə uşaq kitabxanalarının qarşısında duran əsas vəzifələrdən biri də gənc nəsildə vətənpərvərlik hissləri aşılamaqdır. Bu baxımdan uşaq kitabxanalarında oxucularla aparılan fərdi söhbətlərin əhəmiyyəti böyükdür.

Kiçik və orta yaş qrup oxucular arasında müharibə mövzusunda icmallar, söhbətlər aparmaq yerinə düşər. Söhbət apararkən oxucuların yaş xüsusiyyətinə və dil sadəliyinə diqqət yetirilməlidir. Azərbaycan ədəbiyyatında müharibə mövzusu ilə bağlı yazıçı və şairlərimizin gözəl əsərlərindən istifadə edərək söhbət zamanı oxucuya məlumat vermək olar. M. Dilbazinin "Partizan Aliyə"" poeması, Ə. Cəmilin "Can nənə, bir nağıl de"..." şeri, Ə. Məmmədxanlının "Buz heykəl"", M. S. Ordubadinin "Serjant İvanov adına körpələr evi"", T. Hüseynovun "Qolsuz kukla"", Ə. Hacızadənin "İki əsgər"" hekayələrini oxumağı uşaqlara təbliğ etmək məqsədilə kitabların icmalını keçirmək lazımdır.

Orta yaş qrup oxucular arasında "Müharibə uşaqların gözü ilə"" mövzusunda rəsm müsabiqəsi keçirmək olar. Müsabiqə keçirilməzdən əvvəl kitabxanaçı oxucuları mövzu haqqında məlumatlandırmalı, uşaqlara şərait yaratmalıdır ki, onlar öz düşüncələrini çəkdikləri şəkillərdə əks etdirə bilsinlər. Müsabiqə uşaqlar arasında demokratik səsvermə yolu ilə keçirilir. Rəsm işləri əvvəlcədən nömrələnir, kitabxananın foyesində və yaxud oxu zalında divardan asılır. 1, 2, 3-cü yerlər üçün səsvermə qutuları hazırlanır. Müsabiqə günü təyin olunur və elan kitabxananın girəcəyində asılır. Tədbirdə oxucular bəyəndikləri işlərin nömrəsinə uyğun olaraq 1, 2, 3-cü yerlərin qaliblərinə səs verirlər. Ən çox səs toplayan iştirakçılar - müsabiqənin qalibləri tutduqları yerə görə kitabxana rəhbərliyi tərəfindən hədiyyələrlə mükafatlandırılırlar.

Bundan başqa kitabxanada orta və böyük yaş qrup oxucular üçün müharibə iştirakçıları, yəni veteranlarla görüşlər təşkil etmək daha maraqlı olar. Çünki uşaqlar görüşdə müharibənin canlı şahidləri ilə yaxından tanış olar, kitablardan oxuduqları, filmlərdən gördükləri hadisələri bir daha onların dilindən eşidərlər. Kitabxanaçı görüşə dəvət olunan veteranlarla əvvəlcədən görüşüb vaxtı müəyyənləşdirməlidir. Qeyd etmək lazımdır ki, görüş keçiriləcək yerdə sərginin təşkili olduqca zəruridir. Həmçinin yaxşı olardı ki, sərgidə görüşə dəvət olunan veteranlar haqqında məqalələr nümayiş olunsun. Aparıcı görüşə çağrılan şəxs haqqında məlumatlar əldə etməli, bu məlumatlar əsasında çıxış edərək onu oxuculara təqdim etməlidir. Bundan sonra qonağa söz verilir. Görüşün sonunda oxucular qonağa suallarla müraciət edə bilər.

Kitabxanada təşkil olunacaq tədbir formalarından biri də ədəbi-bədii gecədir. Bu tədbiri "Biz müharibə istəmirik!"" adı altında təşkil etmək olar. Tədbir iki hissəli hazırlanır. I hissədə II Dünya Müharibəsinin tarixi haqqında rəsmi çıxışlar, II hissədə isə mövzu ilə bağlı şerlər söylənilməli, poema və dram əsərlərindən səhnəciklər göstərilməlidir. Kitabxanaçılara kömək məqsədilə "Biz müharibə istəmirik!"" adlı ədəbi-bədii gecənin ssenarisini veririk.

## Biz müharibə istəmirik!

***(Ssenari)***

**I aparıcı:** Günlər ötüb vaxt dolandıqca çox şey unudulur, arxada qalır, toxum var ağac olur, ağac var qocalıb torpaqdan silinir, hadisə var yaddan çıxır, əhvalat var unudulur. Həyatımızda elə hadisələr, mübarizələr, sınaq, imtahan anları da baş verir ki, zaman-zaman o xatırlanır, uzaqlaşdıqca yaxınlaşır.

**II aparıcı:** 1941-1945-ci illər!

Bu illər saysız-hesabsız qəhrəmanlıq nəğmələri, dastanları ilə bağlıdır.

Bu illərdə yeni-yeni qəhrəmanlar doğuldu, elə bil ki, babəklər, koroğlular, yenidən dünyaya gəldilər.



İgid bərkdə sınanar, döyüşdə doğular.

**I aparıcı:** Yer üzünü adamıyla, ağacıyla, quşuyla, canlı-cansız, yaxşı-yaman hər şeyiylə birlikdə oda qalayan nəhəng tonqallara da bənzədirlər müharibəni. Bu obrazlı fikir bəşəri bəlanın tam tərifi olmağa yaramasa da, onun barəsində əhatəli təsəvvür yaradır. Müharibələr insan toplumlarında və özgələrdə cəmləşmiş ümumi naqislik və günahlardan qidalansa da, çox sayda ləyaqətli və günahsız insanları da məşhərə çəkir. Xalq deyiminə görə qurunun oduna yaş da yanır.

*(2 oxucu səhnəyə daxil olur və şer söyləyir).*

**I oxucu:**

Bir xəbər yayıldı, acı bir xəbər,
Çəkildi əsəblər, hisslər tarıma.
Yağdı ildırım tək, yağdı güllələr,
Yağdı anaların yuxularına.

Məcnun söyüdlərin doldu gözləri,
Pərişan telini daraqlamadı.
Kölgəsinə gələn sevgililəri
Bir də axtarmadı, soraqlamadı.

İgidlər gəlmədi görüşə o gün,
İgidlər getdilər döyüşə o gün.
Yenə Qıratını mindi Koroğlu.
Yenə Çənlibeldən endi Koroğlu...

**II oxucu:**

Odlu səngərlərdən üçkünc məktublar,
Bəzən qanadlandı, bəzən kəsildi.
Qaldı gözəllərin qulağı səsdə
Məhəbbət sınandı mərmilər üstə.

Ümidlər yollarda çırağa döndü,
Əritdi düşməni qar-qırov kimi.
Dəniz çalxalandı, yer silkələndi,
Gedənlər döyüşdü od-alov kimi.

Düşmənin ayağı dəyməsin deyə
Torpağı bağrına basdı igidlər.
Qərib durnalar tək ünvanlarını
O gündən bahara yazdı igidlər.

**I aparıcı:** Bu gün biz II Dünya Müharibəsində əldə olunmuş qələbənin 60-cı ildönümünü qeyd edirik. II Dünya Müharibəsi bəşər tarixində ən dəhşətli müharibə olub. Dəhşətli və ağır olmasına baxmayaraq, qələbə qazanıldı. Düzdür, qələbə bizə çox baha başa gəldi - onun uğrunda çox, həddindən çox insan öz həyatını qurban verdi. Onlar vətən naminə, yer üzərində sülh və səadət naminə həlak oldular.

**II aparıcı:** II Dünya Müharibəsi hərb tariximizin ən unudulmaz səhifələrindəndir. Böyük Vətən Müharibəsində faşist Almaniyası üzərində çalınan qələbədə Azərbaycanın xüsusi əməyi olmuşdur. O ağır, dəhşətli illərdə xalqımız gecə-gündüz bilmədən neft çıxarmış, yüksək keyfiyyətli benzin və sürtkü yağları istehsal etmiş, taxıl və pambıq becərmiş, ön və arxa cəbhəni müxtəlif növ ərzaq, digər zəruri məhsullarla təchiz etmişdir.

**I aparıcı:** Böyük qələbənin təmin edilməsi üçün təkcə sənaye və xalq təsərrüfatında çalışanlar deyil, kənd əməkçiləri də fədakarlıq göstərdilər. Böyük Vətən Müharibəsinin yaratdığı çətinliklərə baxmayaraq Azərbaycan xalqı ordu üçün əlindən gələni əsirgəmədi.

**II aparıcı:** Bizim üçün tarixə çevrilən bu müharibənin təfsilatlarını artıq filmlərdən görmüşük. Mehdi Hüseynzadəyə həsr olunmuş "Uzaq sahillərdə"" Həzi Aslanova həsr olunmuş "Sizi dünyalar qədər sevirəm" filmləri bizə dünya durduqca o illəri xatırladacaq və biz belə qəhrəmanlarımıza baxıb fəxr edəcəyik.

**I aparıcı:** Həzi Aslanovun, İsrafil Məmmədovun, Ziya Bünyadovun, Mehdi Hüseynzadənin, Aslan Vəzirovun, Hüseynbala Əliyevin, Qafur Məmmədovun və bir çox başqalarının hünərləri xalqımızın salnaməsinə həmişəlik yazılmışdır.

("Uzaq sahillərdə"" filmindən partizanlar haqqında olan musiqi səslənir və müsiqi sədaları altında səhnəyə M. Dilbazinin "Partizan Aliyə" "poemasından səhnələş- dirilmiş parçanın iştirakçıları - stol arxasında oturmuş gestapoçu, 2 faşist zabiti, qolları qandallı Aliyə daxil olur. Aparıcının pərdə arxasından səsi eşidilir.)

**Aparıcı:**

Kim deyir ki, dünyada,
Həkim adi insandır?
O ölümlə çarpışan
Yenilməz qəhrəmandır.
Canı bütün canlara
Bağlı, o başqa candır.
Neçə ömrün qayğısı
Yazılıb üzərində,
İnsanların düşdüyü
Kədər dənizlərində
Mahir qəvvasdır onlar.
Bunu həkim əlindən
Şəfa tapanlar anlar.
Aliyə də bununçün
Keçib bəlkə canından...
Bir dərya var, lil axır.
Biri də var - tamam qan.
Qan var - gözlərdən gəlir,
Qan var - axır yaradan
Sənin səsin, Aliyə,

indi gəlir haradan?
**Gestapoçu:** Otur!
Qələmi al, imzanı bu kağıza at!
Yaz!
"Mən azərbaycanlıyam,
Şərqliyəm, şərqqanlıyam.
Atın silahı yerə, ey azərbaycanlılar.
Özbək, tatar qardaşlar,
Sizə nicat verəcək,
Gözəl həyat verəcək,
Ali, almanqanlılar. "
Eşitdin, yaz!

**Aliyə:** Olmaz!
Budur inamı bizim döyüşçülərin,
İstəyirsiniz bununçun mənə əzablar verin.
Əlinizdə həm silah, həm də ki, ixtiyar var.
Mənim etiqadımdan ancaq gücsüzdür onlar.
**Gestapoçu:** Etiqadınız nədir?
**Aliyə:** Etiqadım insana, bəşərə xidmət edir.
**Gestapoçu:** Nədir bu xidmətiniz?
**Aliyə:** İnsanları irqlərə, qanlara bö!mürük biz.
Özgə torpaqlarında vuruşub ölmürük biz.
**Gestapoçu:** Elə isə rusdurmu sizin milliyyətiniz?
Bu rus torpaqlarında ölüb dirilirsiniz,
Vuruşursunuz niyə?
**Aliyə:** Xidmət eləyirik biz çünki bir əqidəyə!
Qoruyuram mən burda azadlıq niyyətimi,
Həm də öz millətimi.
Bir millət ki, heç kəsin qənimi olmamışdır.
Oğulları qəsbkar, cəllad doğulmamışdır.
**Gestapoçu:** Özünü aldatma, sus!
**Aliyə:** Yox sizdə milli namus!
**Gestapoçu:** Bir ovuc qaralarçın, fərqi nə alman, ya rus?
**Aliyə:** Ölkənizdə dirçəlib faşizm adlı kabus!
Tarix nə vaxtdan bəri, görmüş bu dəhşətləri:
İnsanın dərisindən əlcək geyinsin insan,
Həmcinsinin əridib sümüyünü, ətini,
Sabun bişirsin ondan,
Buhenvald peçlərində, yandırıb öz eliylə,
Gübrələsin torpağı həmcinsinin külüylə.
Qan qoxusu gələcək sizin çörəyinizdən.
Bütün xalqlar bununçun ikrah edirlər sizdən.
(Gestapoçu Aliyənin üzünə sillə vurur. )
**Gestapoçu:** Aparın!
**Aparıcı:** Onun olmadısa ömrü çox uzun,
Tarix öz şərəfli səhifəsinə
"Əbədi partizan"" yazdı adını
Aliyə adlanan bu həkim qızın.
Sönməyən alovlar, odlar içində
Belə döyüşdülər o mərd insanlar.
Günəşli, çörəkli torpaq üstündə,
Biz yaşayaq deyə, öldülər onlar.

**II aparıcı:** Böyük Vətən Müharibəsi zamanı 400 min azərbaycanlı faşizmlə mübarizədə həlak olub. 123 nəfər həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 30 nəfər isə göstərdiyi qəhrəmanlıqlara görə "Şöhrət ordeni" nin hər üç dərəcəsi ilə təltif ediliblər. Həzi Aslanov, Ziya Bünyadov, İsrafil Məmmədov, Qafur Məmmədov, Mehdi Hüseynzadə. . . II Dünya Müharibəsi tarixinə Azərbaycanın adını yazan qəhrəman oğullardır.

"Nə olaydı bir sarı yarpaq olaydım,
Sabahın yelləri alaydı məni:
Aşıb bəyaz donlu uca dağları,
Vətən torpağına salaydı məni..."

Bu sözlər xalqımızın mərd oğlu, əfsanəvi qəhrəman, kəşfiyyatçı Mehdi Hüseynzadəyə məxsusdur. Onun qəbri İtaliyanın Çepovani kəndindədir. Qəbri üzərində bu sözlər yazılmışdır: "Azərbaycan xalqının qəhrəman oğlu, əziz dostumuz Mehdi, rahat yat. Sənin azadlıq uğrunda göstərdiyin ölməz qəhrəmanlıq dostlarının qəlbində daim yaşayacaqdır."

II aparıcı: 1941-45-ci illərdə Azərbaycan döyüşən ordunun ən mühüm və etibarlı arxa cəbhəxanalarından biri olmuşdur. Təsadüfi deyildir ki, faşist Almaniyasının hərbi strateji planlarında Qafqazı tutmaq, Bakının neft mədənlərini ələ kecirmək xətti çox mühüm yer tutmuşdu. Hitlerçilər əvəzsiz sərvət sayılan Bakı neft-qaz yataqlarını, mədənlərini dağıdılmamış və onlara zərər toxunulmadan ələ keçirmək niyyətində idilər. Lakin onların bu planı baş tutmadı. Bakı özünü yadelli işğalçılardan qoruya bildi.

**I aparıcı:**
Dörd il açılmayıb burda könüllər,
Dörd il Bakıda da yaz olmayıbdır.
Qəhrəman şəhərlər çəkdiklərindən
Bakının çəkdiyi az olmayıbdır.
Bakı qılınc kimi qalmadı qında,
Sıyrıldı kədərin, min qəmin üstə.
Tankın, təyyarənin motorlarında
Bakı "yeriyirdi" düşmənin üstə.

**II apırıcı:**
Bakı neçə-neçə cəbhə yarırdı;
Yolu irəliydi, yalnız irəli.
Bir əli torpaqdan neft çıxarırdı,
Bir əli cəbhədə yanırdı, bəli!
Dönüb o illərə bir salın nəzər,
Barı o günləri düşünün, anın,
Bir neft dənizinə dönmüşdü Xəzər,
Hələ də neftlidir suları onun.
Şöhrət istəməyir bu qəlbi dəniz,
Onda ünvanı var hər gələn yazın.
Qəhrəman şəhərlər cərgəsinə siz



Yazın! Bakının da adını yazın!

**I aparıcı:** II Dünya Müharibəsi xalqımıza böyük ziyanlar vurdu. Bu azmış kimi 1988-ci ildən erməni faşizminin xalqımıza qarşı torpaq iddiası ilə başladıqları müharibə daha böyük ziyanlar vurdu. Erməni işğalçılar torpaqlarımızın 20%-ni işğal etmiş, anamız Azərbaycanın ulu xatirələr saxlancı olan - gözəl Qarabağımızı talan etmişdir. Alman faşizminin törətdiyi dəhşətli Xatın faciəsini erməni faşizmi vətənimizdə Xocalı faciəsi ilə əvəz etdi.

**II aparıcı:** Xocalı bizim böyük milli faciəmizdir. Zaman bizi 1941-45- ci illər müharibəsindən uzaqlaşdırarkən, Xocalı faciəsinə yaxınlaşdırdı. Bu hiss bizdə Xocalı soyqırımını törədən düşmənlərimizə qarşı kin-küdurəti gücləndirir, hər an intiqam hissi oyadır.

Qan yaddaşımıza yazıldı Xocalı qırğını.

(2 oxucu daxil olur. Biri N. Həsənzadənin "Xatın qışqırığı" şeirindən, digəri isə H. Ziyanın "Xocalı müsibəti"" şerindən parçalar söyləyirlər. )

**I oxucu:** Xəfif meh dəyir üzümə hərdən,
Burda hər ürəyin bir ahı qalıb.
Dağılan hər evdən,
Hər ailədən
Mərmər lövhə üstə siyahı qalıb.
Kədər şüalanır burda elə bil,
Burda Xatın boyda çəmən var-ot yox,
Otaq var, insan yox,
Ocaq var, od yox!
Qəbir var - bu daşlar başdaşı deyil,
Torpaq var - bu torpaq o torpaq deyil...
Bir heykəl dayanıb, əlində uşaq,
Üsyan nəğməsidir burdakı yasa.
O deyir: bu xatın bir də yanacaq,
Xatın yanğısını dünya unutsa...

**II oxucu:** Günəş necə yanırsan,
Necə işıqlanırsan?!
Yer niyə dolanırsan!
Dayanıb sükutda dur.
Dərk et bu fəlakəti-
Görünməz müsibətdir,
Xocalı müsibəti!
İllərə axın-axın
Kimi bilmişik yaxın?!
Xəyanətkar alçağın
Faşistdən də min dəfə
Murdar imiş xisləti
Car olmalı dünyaya, -
Xocalı müsibəti!
Yerdə qalsa belə qan
Əl üzülər dünyadan!
Məğrur dur Azərbaycan!
Cəzasız qalmayacaq
Törədən cinayəti
Dəhşətlər dəhşətidir
Xocalı müsibəti!

**I aparıcı:** İllər ötür, zəmanə dəyişir. Artıq 60 yaşı var qələbənin. Bu tarixdir, eyni ilə Azərbaycanın da tarixidir. Onun canlı şahidləri isə az qalıb, çox az. . . Hazırda respublikamızda II Dünya Müharibəsinin cəmi 42 min veteranı yaşayır. Bəşəriyyəti faşizm taunundan xilas edən bu nəslin nümayəndələri yüksək hörmətə, ehtirama layiqdirlər. Bir də vətənin azadlığı üçün çox şey öyrənəcəyimiz bir məktəbin, nəslin nümayəndələri kimi onlara çox ehtiyacımız var. Xalq sizin 1941-45-ci illərdə döyüş meydanlarında, gərgin əmək cəbhəsində göstərdiyiniz hünəri heç vaxt unutmayacaqdır. Qoruyaq onları!

**II aparıcı:** Yaşayın, əziz veteranlar! Canınız sağ, ömrünüz uzun, çöhrəniz həmişə sevincli olsun. Qazandığınız Qələbə günü, 9 May bayramınız mübarək!

Alqış sizə, od köynəkli qəhrəmanlar,
mərd ürəkli qəhrəmanlar!
Üzünüzdə təbəssümə dönsün bu gün
ölənlərin-itənlərin xatirəsi.
Siz dünəndən bu günümə soraqsınız.
qızıl tarix kitabından
Pozulmayan vərəqsiniz.

**Son**

## İstifadə olunan ədəbiyyat


1. Alov saçan sətirlər. -B. : Azərnəşr, 1975. - 326 s.
2. Dilbazi M. Dağ çiçəyi. - B. : Gənclik, 1977. - 320 s.
3. Dünya durduqca. - B. : Azərnəşr, 1977. - 187 s.
4. Elzar. Tarixi dəyişən müharibə, Şəkər villası, 2003. - 27 may.
5. İmanov B. Onlar yüksək ehtirama layiqdirlər Xalq qəzeti, 2001. - 9 may.
6. İsmayılov İ. II Dünya Müharibəsinin dönüş nöqtəsi, Xalq qəzeti, 2001. - 12 dekabr.
7. Hüseynov B. Qələbə bizim ümumi xidmətimizdir Xalq qəzeti, 1999. - 8 may.
8. Məmmədov S. Azərbaycanın şanlı qızları. - B. : İşıq, 1988. - 160 s.
9. Nəzirli Ş. Əfsanəvi Mixaylo. - B. : Gənclik, 1988. - 88 s.
10. Odlu illərin əks-sədası. - B. : Azərnəşr, 1985. -323 s.
11. Şıxlı S. Faşizm üzərində qələbəni xalqların birliyi təmin etdi, B. : Xalq qəzeti, 2002. - 7 may.


**Fizurə Qasımova ,**
**F. Köçərli adına Respublika Uşaq kitabxanasının direktoru**

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası
16088